# "Xarıbülbül" festivalı çərçivəsində "Qarabağnamə" adlı sərgi açılıb

**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada işə başlayan "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı çərçivəsində mayın 12-də "Qarabağnamə" adlı sərgi açılıb.**



Qarabağın tarixinə, füsunkar təbiətinə boyalara həyat verən təsviri sənət ustalarımızın "Laləzar körpüsü", "Saatlı məscidi", "Azad Şuşa", "Şuşa incisi", "Ana Vətən" və digər əsərlərinin qarşısından dayanmadan keçmək mümkün deyil.

Şuşa şəhərində yerləşən Yaradıcılıq mərkəzində açılan sərgidə 23 rəssamın Qarabağın tarixi, zəngin mədəniyyəti, məişəti, xüsusilə də Şuşanın tarixi və memarlığını əks etdirən əsərləri nümayiş olunur.

Sərgilənən əsərlərdə Qarabağın stereotipləri, musiqi sənəti, süfrə mədəniyyəti, bayram coşqusu, milli mətbəxi kimi mövzular böyük həvəslə canlandırılıb.

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.11.